## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*
## *ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ*
## *HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT*

*UOT 37.0*

***Şiruyə Məhəmmədəli qızı Azadəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının dosenti*
*0000-0001-5210-3456*

# XX ƏSRİN 40-50-ci İLLƏRİNDƏ AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİLİN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Шируя Магомедали гызы Азадалиева***
*доктор философии по педагогике,*
*доцент кафедры Общей педагогики*
*Азербайджанского Государственного Педагогического Университета*

# СОВЕРШЕНСТВОВАНИЕ СОДЕРЖАНИЯ ВЫСШЕГО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ В 40-х И 50-х ГОДАХ XX ВЕКА

***Shuriya Mahammadaly Azadaliyeva***
*doctor of philosophy in pedagogy,*
*associate professor of the department of General pedagogy of the*
*Azerbaijan State Pedagogical University*

# IMPROVING THE CONTENT OF HIGHER PEDAGOGICAL EDUCATION IN AZERBAIJAN IN THE 40S AND 50S OF THE 20TH CENTURY

**Xülasə.** XX əsrin 40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi prosesi davam etdirildi. Tədris planlarında çoxfənlilik kəskin şəkildə ixtisar olundu. 1949-50-ci tədris illərində universitetlərin tədris planlarında, 1951-52-ci tədris illərində isə pedaqoji ali məktəblərin tədris planlarında əsaslı dəyişikliklər edildi. Ümumtəhsil silsiləli bəzi fənlərin tədris planından çıxarılması hesabına müəllimlərin praktiki hazırlığını müəyyən qədər gücləndirdi. Pedaqoji, tədris və istehsalat təcrübəsinə ayrılan saatların ümumi miqdarı artırıldı. Yeni tədris proqramları əsası yeni dərsliklərin yazılmasını aktuallaşdırdı. Pedaqogikaya dair yeni dərslik və dərs vəsaiti (Ə. Seyidov, M. Mehdizadə, M. Muradxanov) yazıldı.
***Açar sözlər:*** *ali pedaqoji təhsil, ali təhsil müəssisələri, kadr hazırlığı, müəllim, fakültə, tədris planı, dərslik*

**Резюме.** В 40-х и 50-х годах 20 века в Азербайджане продолжился процесс совершенствования содержания высшего педагогического образования. Мультидисциплинарность в учебных планах резко сократилась. В 1949/50 учебных годах были внесены коренные изменения в учебные планы университетов, а в 1951/52 учебных годах - в учебные планы педагогических вузов. В связи с изъятием некоторых предметов из учебных программ общеобразовательной серии в определенной степени усилена практическая подготовка учителей. Увеличено общее количество часов, отводимых на педагогическую, преподавательскую и производственную практику. Основа новых образовательных программ сделала написание новых учебников более актуальным. Написан новый учебник и учебник по педагогике (А. Сеидов, М. Мехдизаде, М. Мурадханов).
***Ключевые слова:*** *образование в высшей педагогической школе, высшие учебные заведения, подготовка кадров, преподаватель, факультет, учебный план, учебник*

**Summary:** In the 40s and 50s of the 20th century, the process of improving the content of higher pedagogical education continued in Azerbaijan. Multidisciplinarity in curricula has been drastically reduced. In the 1949/50 academic years, fundamental changes were made to the curricula of universities, and in the 1951/52 academic years, to the curricula of pedagogical universities. In connection with the withdrawal of certain subjects from the curricula of the general education series, the practical training of teachers has been strengthened to a certain extent. The total number of hours devoted to pedagogical, teaching and industrial practice has been increased. The basis of new educational programs made the writing of new textbooks more relevant. A new textbook and textbook on pedagogy was written (A. Seidov, M. Mehdizade, M. Muradkhanov).

***Key words:*** *education in higher pedagogical school, higher educational institutions, personnel training, teacher, faculty, curriculum, textbook*

Keçən əsrin 40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi prosesi davam etdirildi. 1936-37-ci dərs ilinin tədris planlarının əsasını təşkil edən prinsiplər sonrakı illərdə də saxlanıldı, universitetin tədris planlarında pedaqoji fənlərin tədrisi genişləndirildi. 1936-1941-ci illərin tədris planında xeyli nöqsanlar var idi. Bu nöqsanlar ictimai fənlərin tədrisinə daha çox təsir göstərirdi. 1940-1941-ci tədris ilinin tədris planlarında dialektik və tarixi materializmin əvəzinə "Marksizm-leninizm əsasları" adlı yeni fənn daxil edilmişdi. Onun tədrisi "ÜİK(b)P-nın qısa tarix kursu" üzrə aparılırdı ki, bu da gələcək müəllimlərin fəlsəfi hazırlığı üçün kifayət etmirdi. Pedaqoji institutun bəzi fakültələrində, o cümlədən fizika-riyaziyyat fakültəsində siyasi iqtisadın tədrisi dayandırılmışdı. Universitetdə pedaqogika tarixinin ayrıca fənn kimi öyrənilməsi nəzərdə tutulurdu. Pedaqoji institutun tədris planlarında nəzəri məşğələlərin artırılması nəticəsində nəzəriyyə və təcrübə arasındakı nisbət kəskin şəkildə dəyişdi. Böyük Vətən müharibəsi illərində Respublikanın pedaqoji ali təhsil müəssisələrinin və universitetin tədris planlarında böyük dəyişikliklər edildi. Bu dövrün tədris planlarında çoxfənlilik minimum səviyyəyə qədər endirildi, tələbələrin hərbi hazırlığına, fiziki tərbiyəsinə, xarici dillərin tədrisinə ayrılan saatların həcmi artırıldı. 1943-44-cü dərs ilinin tədris planlarında fiziki və hərbi hazırlığa 300 saat ayrılmışdı. Bütün fakültələrdə xarici dillərin öyrənilməsinə 330 saat ayrılması nəzərdə tutuldu.

Tədris planlarında çoxfənlilik kəskin şəkildə ixtisar olundu. Xarici dillər fakültəsində fənlərin sayı 17-yə qədər azaldıldı. Pedaqoji-psixoloji fənlərin (psixologiya, pedaqogika, xüsusi metodika və pedaqoji təcrübə) tədrisinə ayrılan saatların miqdarı isə müharibəyə qədərki dövrdə olduğu kimi saxlanıldı.

1949-50-ci tədris illərində universitetlərin tədris planlarında, 1951-52-ci tədris illərində isə pedaqoji ali məktəblərin tədris planlarında əsaslı dəyişikliklər edildi. Universitetin 1949-1950-ci tədris illərindəki tədris planında tələbələrin peşə-pedaqoji hazırlığı zəif əks olunmuşdu. Müharibəyə qədər və müharibə ərəfəsində olduğu illə müqayisədə tədris planında pedaqoji fənlərə ayrılan saatların miqdarı kəskin şəkildə azaldılmışdı. Bu rəqəm təqribən 36-50% təşkil edirdi. İxtisarlar aşağıdakı kimi idi: a) filologiya və biologiya (fakültativ 32s.) fakültələri istisna olmaqla heç bir fakültədə psixologiyanın tədrisi nəzərdə tutulmurdu; b) kimya fakültəsində pedaqogikanın tədrisi nəzərdə tutulsa da, fizika fakültəsində bu fənn fakültativ kurs kimi öyrədilir; riyaziyyat fakültəsində isə metodika ilə birlikdə keçirilirdi; c) kimya və biologiya fakültələrində fənnin metodikalarının öyrənilməsi nəzərdə tutulmurdu, halbuki, fizika fakültəsində metodikaya (fakültativ) 80 s. ayrılmışdı; d) tədris planlarında kimya və fizika fakültələrində pedaqoji təcrübənin keçirilməsini nəzərdə tutmurdu, biologiya fakültəsində isə pedaqoji təcrübəyə cəmi 2 həftə ayrılmışdı.

Universitetin tədris planlarında pedaqoji fənlərə ayrılan saatların ixtisarı məzunların pedaqoji və metodik hazırlığına mənfi təsir göstərirdi. Düzgün olmayan ixtisar siyasəti az sonra praktiki pedaqoji işdə özünü göstərdi.

Universitetin tədris planlarından fərqli olaraq respublikanın pedaqoji ali təhsil müəssisələrinin tədris planları RSFSR-də tədrisi rus dilində olan pedaqoji ali məktəblərinin tədris planları əsasında tərtib edilmişdi. Bu tədris planları SSRİ Ali Təhsil Nazirliyi tərəfindən 1951-ci ilin iyul ayında təsdiq edilmişdi.

RSFSR-in tədris planları ilə müqayisədə Azərbaycan pedaqoji ali təhsil müəssisələrinin tədris planlarında ciddi dəyişikliklər edilmişdi. Bu yerli şərait və təlim dili ilə bağlı idi. Bu deyilənləri V.İ. Lenin adına APİ-nin 1951-1952-ci il dərs ilində istifadə etdiyi tədris planından da görmək olar:

1. Tarix, dil və ədəbiyyat, fizika-riyaziyyat, coğrafiya, təbiətşünaslıq fakültələrinin tədris planında I, II kurslarda xarici dillərə ayrılan saatların 140 saata qədər ixtisarı və tələbələrin həftəlik saatlarının ildə 160 s. artırılması hesabına tədris yükü 300 s. həcmində artırılmışdı. Bununla yanaşı fizika-riyaziyyat, coğrafiya, təbiətşünaslıq fakültələrinin tədrisi digər dillərdə olan qruplarda 175 s. həcmində Azərbaycan dilinin tədrisi nəzərdə tutulmuşdu.

2. Ayrı-ayrı fənlərin ixtisar edilməsi hesabına tədris planına Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə 178 s. rus ədəbiyyatı və 66 s. Azərbaycan tarixi daxil edilmişdi.

3. Tarix ixtisası üzrə tədris planına xarici ədəbiyyatın 30 s., rus ədəbiyyatının 44 s. ixtisar olunması hesabına 102 saat Azərbaycan tarixi, 102 s. Azərbaycan ədəbiyyatı artırılmışdı.

4. Rus dili və ədəbiyyatı ixtisası üzrə tədris planına tələbələrin həftəlik saatlarının artırılması hesabına aşağıdakı fənlər artırılmışdı: Azərbaycan dili, Azərbaycan ədəbiyyatı.

Bu dəyişikliklərin və artırılmaların hesabına bəzi kurslarda tələbələrin həftəlik yükü 40-41s. artmışdı. Tələbələr gündə 8 s. dərs keçməli olurdular. Bu da tələbələrin müstəqil işləmələrinə mənfi təsir göstərməyə bilməzdi.

Yeni təşkil olunan Pedaqoji Xarici Dillər İnstitutunun tədris planı onun V.İ. Lenin adına APİ-nin tərkibində fakültə kimi fəaliyyət göstərdiyi illə müqayisədə bir sıra üstünlüklərə malik idi. Belə ki, 1948-ci ilin tədris planından mütəxəssis hazırlığında rolu olmayan bəzi ümumtəhsil fənlərinin çıxardılması hesabına da, çoxfənlilik aradan qaldırıldı. Pedaqoji Xarici Dillər İnstitutunun tədris planı respublikanın digər pedaqoji ali təhsil müəssisələrinin tədris planı üçün səciyyəvi olan müəyyən nöqsanlardan da xali deyildi.

Bu çatışmazlıqlara ilk növbədə tədris planlarında peşə istiqamətliliyinin kifayət qədər olmamasını, nəzəriyyə və təcrübə arasında olan uyğunsuzluğu aid etmək olar. Fənlərin tədrisi metodikası tədris planında III kursda nəzərdə tutulmuşdu, III kursdan da tələbələrin pedaqoji təcrübəsi başlayırdı. Beləliklə, tələbələr öyrənilən dilin tədrisi metodikası kursunu axıra qədər dinləmədən pedaqoji təcrübəyə gedirdilər.

Pedaqoji təcrübənin keçirilməsi üçün oktyabr, noyabr ayları nəzərdə tutulmuşdu və buna görə də tələbələr tədris prosesinin bütün mərhələləri ilə tanış ola bilmirdilər. Dərs ilinin əvvəlində isə tələbələrin məktəbdə olması vacib idi. Belə ki, dilin öyrənilməsinin ilkin kursun, xüsusilə ingilis və fransız dillərinin giriş kursu təzə müəllim üçün çox böyük çətinliklər törədirdi.

Tədris planında “Tərcümə” fənni yox idi, halbuki o illərin orta məktəb proqramlarının xarici dillərin tədrisində başlıca məqsədi məhz “oxumaq, başa düşmək və tərcümə etmək”dən ibarət idi.

Xarici dillər institutunun tədris planına ciddi dəyişikliklər 1950-51-ci dərs ilində edildi. Bütün ixtisaslar üçün həmçinin “Orta məktəbdə xarici dil müəllimi” ixtisası üçün stabil tədris planı kimi bu planlar SSRI Ali Təhsil Nazirliyi tərəfindən təsdiq edildi.

1950-51-ci dərs ilinin stabil tədris planı ümumtəhsil silsiləli bəzi fənlərin tədris planından çıxarılması hesabına müəllimlərin praktiki hazırlığını müəyyən qədər gücləndirdi. Lakin bu tədris planlarında tarix və öyrənilən dilin coğrafiyası fakültativ fənlərə çevrildi, ümumi ədəbiyyat, rus və sovet ədəbiyyatı fənləri isə tamamilə çıxarıldı. Bunu isə müsbət hal kimi qiymətləndirmək olmaz. Sonrakı illərdə tədris planına prinsipial xarakter daşımayan cüzi dəyişikliklər edildi.

Respublikanın pedaqoji ali təhsil müəssisələrinin tədris planlarına köklü dəyişikliklər Azərbaycan KP MK-nin 24 may 1954-cü il qəbul edilmiş “Respublikanın pedaqoji ali təhsil müəssisələrində müəllimlərin peşə hazırlığının vəziyyəti və yaxşılaşdırılması haqqında” qərarı əsasında edildi.

Azərbaycan KP MK özünün qərarında göstərdi ki, tədris işinin qeyri qənaətbəxş təşkili nəticəsində respublikanın pedaqoji ali təhsil müəssisələri öz məzunlarına məktəbdə müstəqil işləmək üçün əsaslı peşə bilikləri verə bilmirlər. Azərbaycan KP MK gənc müəllimlərin təlimi və tərbiyəsi sahəsində göstərilən nöqsanların aradan qaldırılması üçün respublikanın xalq təhsil orqanların 1954-55-ci dərs ilinin axırına qədər bütün pedaqoji ali təhsil müəssisələrinin tədris planında dəyi-

şikliklər aparılmasını tapşırdı. Azərbaycan KP MK göstərdi ki, tədris planlarındakı dəyişikliklər respublikanın pedaqoji ali təhsil müəssisələrinin hər birinin xüsusiyyəti nəzərə alınmaqla aparılmalıdır.

Daha sonralar tədris planlarının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsinə SSRİ Nazirlər Sovetinin və Sov.İKP MK-nın "Ali və orta ixtisas təhsilli mütəxəssislərin hazırlanmasının, bölünməsinin və istifadə olunmasının yaxşılaşdırılması haqqında" qərarı (30 avqust 1954-cü il) xeyli kömək etdi. Bu qərarda ali təhsil müəssisələrinin tədris planlarının icbari tədris məşğələləri ilə yüklənməsi, eyni materialların müxtəlif fənlərdə təkrar olunması və həmçinin istehsalat təcrübəsinin təşkilinin qeyri təkmil olması göstərilirdi.

Partiya və hökumətin qərarlarındakı bu vəzifələri nəzərə alaraq SSRİ Ali Təhsil Nazirliyi ölkənin pedaqoji ali təhsil müəssisələri üçün yeni tədris planları təsdiq etdi. Bu tədris planları respublikanın pedaqoji ali təhsil müəssisələrinin tədris planlarının əsasını təşkil etdi. Bu tədris planları SSRİ Ali Təhsil Nazirliyi tərəfindən 15 oktyabr 1954-cü ildə təsdiq edildi.

Pedaqoji ali təhsil müəssisələrinin 1954-cü il tədris planları 1951-ci ildəki tədris planlarından aşağıdakı xüsusiyyətlərinə görə fərqlənirdi: bəzi ixtisaslar üzrə (tarix, coğrafiya) öyrənilən fənlərin miqdarı azaldılmadığı halda, Azərbaycan dili və ədəbiyyatı ixtisasında fənlərin sayı 41-dən 25-ə, təbiətşünaslıq və kimya fakültəsində 33-dən 29 -a endirilmişdi. Beləliklə, Pedaqoji İnstitut üzrə fənlərin ümumi sayı 28 fənn azaldılmışdı ki, bu da ümumi fənlərin 13%-ni təşkil edirdi.

Bununla yanaşı qeyd etmək lazımdır ki, pedaqoji, tədris və istehsalat təcrübəsinə ayrılan saatların ümumi miqdarı artırılmışdı. Bütün ixtisaslar üzrə belə artım təqribən 1000 saat təşkil edirdi ki, bu da 1954-ci tədris planlarının vacib və müsbət cəhətlərindən idi.

Yeni tədris planları fizika-riyaziyyat fakültəsində bir sıra texniki fənlərin (tədris emalatxanalarında praktikum, rəsmxət, tədris kinosunun metodikası, maşınşünaslığın əsasları, istilik texnikası, elektrotexnika, radiotexnika və s.) öyrənilməsinə böyük diqqət yetirirdi. Bu, gələcək müəllimlərin məktəbdə politexnik təlimi həyata keçirməsinə hazırlığın yaxşılaşdırılmasına kömək etməli idi. Tədris planlarında bütün fakültələrdə pioner düşərgələrində yay təcrübəsinin aparılması nəzərdə tutulmuşdu.

1954-cü ilin tədris planları da nöqsanlardan xali deyildi. Əvvəlki tədris planlarından fərqli olaraq burada pedaqoji fənlər üzrə tələbələrin nəzəri hazırlığına xidmət edən fənlər xeyli ixtisar edilmişdi: psixologiya kursu 17 s., pedaqogika tarixi 26 s., məktəb gigiyenası 18 s. ixtisar edilmişdi. Bəzi ixtisaslar üzrə, o cümlədən Azərbaycan dili və ədəbiyyatı, təbiətşünaslıq və kimya, coğrafiya üzrə tələbələrin məşğələ yükü nəinki azaldılmışdı, əksinə xeyli artırılmışdı.

Məqbul və imtahanların sayında ciddi dəyişikliklər baş verməmişdi. Pedaqoji ali təhsil müəssisələrinin 1954-55-ci tədris ilinin planlarında nöqsanların olmasına baxmayaraq onların gələcək müəllimlərin peşə-pedaqoji hazırlığı sahəsində tələblərin ödənilməsi işində universitetin tədris planları ilə müqayisədə böyük üstünlüyə malik idi. Pedaqoji ali təhsil müəssisələrinin 1954-55-ci dərs ilinin tədris planlarında pedaqoji fənlərə xeyli yer ayrılmışdı. Bunu universitetlərin o vaxtkı tədris planları haqqında demək olmaz. Bundan əlavə universitetlərin tədris planlarında pedaqoji fənlərin sayı hər fakültədə fərqli idi. Pedaqoji ali təhsil müəssisələrinin tədris planlarında pedaqoji fənlərə ayrılan saatların miqdarı universitet tədris planlarındakına nisbətən 2-3 dəfə çox idi. O dövrdə Universitetin məzunlarının təqribən 80%-nin orta məktəbdə müəllim işlədiyini nəzərə alsaq bu halı normal hesab etmək olmaz. 1957-58-ci dərs ilində ali pedaqoji təhsil müəssisələrinin tədris planlarında ciddi dəyişikliklər edildi. 1954-ci ilin tədris planlarından fərqli olaraq pedaqoji ali təhsil müəssisələrinin 1957-58-ci dərs ilindəki tədris planlarından məktəb gigiyenasına ayrılan saatların miqdarı 36saata qədər artırıldı.

Bu illər pedaqoji ali təhsil müəssisələrinin tədris planlarında pedaqoji, tədris-sahə (çöl) və istehsalat təcrübəsinə xeyli yer ayrılmışdı.

1957-58-ci dərs ilində universitetin tədris planlarında da köklü dəyişikliklər edildi (4, s.233). Universitetdə tələbələrin pedaqoji və metodiki hazırlığının böyük əhəmiyyət kəsb etməsini nəzərə alaraq 1957-58-ci dərs ilində SSRİ universitetlərinin nümunəvi tədris planlarına bir sıra pedaqoji fənlər daxil edildi. Azərbaycan Dövlət Universitetinin tədris planlarına pedaqogika kursunun (bu kursun tarixi elementləri ilə) öyrənilməsi daxil

edildi, tarix və filologiya fakültələrinə psixologiya kursu və həmçinin məşğələlərdən ayrılmaqla 6 həftəlik pedaqoji təcrübə artırıldı. Bundan əlavə bütün humanitar fakültələrdə təhsildən ayrılmamaqla 60 saat təcrübə müəyyənləşdirildi. Bir sıra fakültələrdə tələbələrin pioner düşərgələrinə göndərilmələri nəzərdə tutuldu.

Beləliklə, göstərilən tədris planlarından pedaqoji fənlərə pedaqoji təcrübə ilə birlikdə dərs vaxtının 12,7%-i ayrılırdı. Bütün bunlara baxmayaraq pedaqoji ali təhsil müəssisələrinin tədris planı ilə müqayisədə universitetin tədris planları pedaqoji fənləri az əhatə edirdi. Lakin şübhəsiz ki, universitetlərin mövcud olduğu bütün illər ərzində pedaqoji fənlərin səviyyəsi 1957-ci ildəki tədris planındakı qədər olmamışdı. Xüsusilə müharibədən sonrakı illərdə müəyyən dəyişikliklər edilən bu proqramlar keyfiyyətcə yaxşılaşdı və gələcək müəllimlərin pedaqoji hazırlığına əsaslı kömək etdi.

Tədris prosesində əsasını təşkil edən plan və proqramları yeni dərsliklərin yazılmasını aktuallaşdırdı.40-ci illərdə pedaqogikaya aid bir neçə metodik kitab və kitabça nəşr olundu. 50-ci illərin sonunda prof. Əhməd Seyidovun III hissəlik "Pedaqogika tarixi" tədris vəsaiti tələbələrin istifadəsinə verildi (5,s.344). Tədris vəsaiti hazırlanarkan mövcud müvafiq dərsliklərdən və materiallardan geniş istifadə olunmuş, pedaqogika tarixinin tədrisi sahəsində qazanılmış uğurlara istinad edilərək nisbətən yeni dərslik yaradılmasına təşəbbüs göstərilmişdir. Kitabın I hissəsində (I və II hissələr Ə. Tağıyevlə birlikdə yazılmışdır) Avropa ölkələrinin, II hissədə xalqların, III hissədə sovet xalqlarının məktəb və pedaqogika tarixinə dair oçerklər verilmiş, müxtəlif pedaqoji nəzəriyyələrin inkişaf meylləri şərh edilmişdir. Azərbaycan və rus dilində mövcud olan vəsaitlərdən fərqli olaraq, bu vəsaitə Zaqafqaziya xalqlarının məktəb və pedaqoji fikir tarixindən materiallar daxil edilmişdir. Əhməd Seyidov az sonra hər üç kitabı birləşdirmiş, 1968-ci ildə "Maarif" nəşriyyatında yenidən çap etdirmişdir. Həmin dərslik istər dil, istər üslub, istərsə də elmi məzmununa və müsbət məziyyətlərinə görə 1959-1960-cı illərdə çap edilmiş vəsaitlərdən əsaslı surətdə fərqlənir. Mövcud ehtiyacı aradan qaldırmaq, pedaqoji ədəbiyyatı zənginləşdirmək nöqteyi-nəzərindən bu dərslik 60-cı illərdə elmi-metodik cəhətdən öz qarşısında duran tələblərə cavab verirdi. Buna görə də kitab çap olunan kimi elmi-pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

50-ci illərin sonlarında Azərbaycan Pedaqoji İnstitutunun pedaqogika kafedrasının əməkdaşlarının (Mehdi Mehdizadə, Mərdan Muradxanov, Tələt Əfəndiyev, İsfəndiyar Vəlixanlı) hazırladığı II hissəlik "Pedaqogika" tədris vəsaiti çap olundu. Mövcud materiallara və Azərbaycan ali pedaqoji məktəblərində qazanılan təcrübəyə istinadən yazılan həmin vəsait 4 bölməni əhatə edirdi: 1) pedaqogikanın ümumi əsasları; 2) təlim nəzəriyyəsi; 3) tərbiyə nəzəriyyəsi; 4) məktəbşünaslıq. Yüksək elmi-nəzəri səviyyədə yazılmış, ciddi ümumiləşdirmələrin nəticəsi kimi meydana gələn dərs vəsaiti ali pedaqoji məktəblərin həyatında hadisə kimi qiymətləndirildi.

**Problemin aktuallığı.** XX əsrin 40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi probleminin öyrənilməsi tarixi irsi öyrənmək baxımından əhəmiyyətlidir.

**Problemin elmi yeniliyi.** XX əsrin 40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi problemi ilk dəfədir ki, sistemli şəkildə öyrənilir.

**Problemin praktik əhəmiyyəti.** XX əsrin 40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun öyrənilməsi müasir dövrdə ali pedaqoji təhsil quruculuğunda əhəmiyyətli rol oynaya bilər

**Ədəbiyyat:**

1. Musayev, I. Pedaqogiкanın ümumi əsasları / I. Musayev –Bakı: APİ,–1990.
2. Əhmədov, B. Pedaqogiкadan mühazirə кonspeкtləri / B. Əhmədov, A. Rzayev. – Bakı: Maarif, 1983. - s. 350
3. Azərbaycan Dövlət Pedaqoji Universitet (1921-2006) /–Bakı: Nurlan,–2006, –311 s.
4. Rüstəmov, F. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi. [I cild.] (1921-2021). / F. Rüstəmov – Bakı: ADPU,–2021,–380 s.
5. Rüstəmov, F. Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları. / F. Rüstəmov–Bakı: ADPU,–2021,–544 s.

**E-mail:** shiruye.azadeliyeva@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok. dos.* **K.R. Quliyeva**
*ped.ü.fəls.dok. dos.* **H.A. Cəfərov**
**Redaksiyaya daxil olub**: 21.08.2023